# ULDUZUN YENİ KİTABI

## *yaxud, ölməyən duyğular haqqında düşüncələr*

Ulduz Qasım həyat adamıdır. Onun yazdığı əsərlərin hamısı birbaşa həyatla səsləşir. Yazıçının müşahidə materiallarından istifadə ilə qələmə alınan bu əsərlər əslində xalqımızın son qırx illik həyat yolunun dəqiq və aydın salnaməsidir.

Ulduz Qasımı yaxşı tanımaq üçün birinci növbədə onun əsərlərin oxumaq, nəyi necə yazdığını görmək lazımdır. Yalnız bundan sonra onun köksündə döyünən ürəyin ritmlərini dəqiq qavramaq mümkün olar.

Hələ iki il əvvəl Ulduz Qasımın yaradıcılığını tədqiqata başlayarkən onun haqqında yazdığım qeydlərə düşüncələrimdə müəyyən forma verməyə çalışmışdım. Təxminən belə bir status yaranmışdı:

"Hər bir regional mühitin özünəxas həyat cizgiləri var və bu cizgilərin aydın və aydın olmayan labirintlərindən keçməklə həyat həqiqətlərinə yaxınlaşmaq, nəinki mümkündür, hətta zəruridir. Bu baxımdan Moskvada yaşayan yazıçı-publisist Ulduz Qasımın yaradıcılığı çox xarakterikdir.Onun həyat hadisələrinə son dərəcə yaxın olan əsərləri göstərir ki, müəllif bu hadisələrin həqiqət mahiyyətini kifayət qədər aydınlığı ilə dərk edir. Yaxşı tanıdığı, bəlkə də prototip olaraq özünün obrazını yaratdığı əsərlərində zəngin həyat faktlarına söykənərək milli düşüncənin çatlarına diqqəti cəlb etməyə çalışır". Bu status bəlkə də bu gün belə yazılmazdı. Axı indi çox kütləviləşmiş bu düşüncə janrı konkret ovqatla bağlıdır. Müəyyən vaxtla məhdudlaşan düşüncə tərzidir.

Hər halda zamanın ötüb-keçmiş çağından üzü geriyə baxaraq düşünürəm ki, Ulduz Qasım həyatla nəfəs alır və çox güman ki, ötüb-keçən hər ana uyğun onun daim dəyişən, yeniləşən düşüncə məhsulları da var.

* * *

Son illər sosial şəbəkədə yayılan materialların, polemika yazılarının, müxtəlif məzmunlu düşüncələrin bir araya gətirilməsi, kitab halında çap edilməsi ənənəsi yaranmaqdadır. Artıq belə nümunələrin nəşri faktı var. Doğrusu, elə mənim özüm də "Baxış bucağında" ümumi başlığı altında müxtəlif məsələlərə münasibətimi bildirdiyim statusları, esseləri, publisistik qeydləri bir araya gətirmək fikrim var. Onu da etiraf edirəm ki, Ulduz Qasımın "Nöqtələrin dedikləri" adı altında cəmlənmiş sosial şəbəkə yazıları məni düşündüyüm məsələni reallaşdırmağa daha çox təhrik etdi.

Həqiqətən, xalqımızın "yazılan qalar", "yazıya pozu yoxdur" kimi ənənə hökmləri kifayət qədər dəyərlidir. Bu mənada biz sosial şəbəkədə yayılan qeydlərimizin də məsuliyyətini daşımağa, əbədiyaşarlığını təmin etməyə borcluyuq. Bütün hallarda bu qeydlər fikir məhsullarıdır. Müəyyən ovqatla bağlıdır. Ən başlıcası, sosial şəbəkədə insanlara təqdim olunan düşüncələr müəllifin həyat mövqeyinin göstəricisidir. Bu mənada belə qeydlər çox dəyərlidir.

Əlbəttə, Ulduz Qasım indi Azərbaycan sərhədlərindən kənarda da məşhurdur. Kifayət qədər tanınır, təqdir olunur. Onun əsl yazıçı mövqeyi son qırx illik zamanın ədəbi-bədii sal-




naməsi olan romanlarında qədərincə aydın görünür. Amma, əlbəttə, hər bir insanın həyatı ilə bağlı, daha doğrusu, şahidi olduğu – sanki zaman qatarından müşahidə etdiyi hadisələrə, olaylara bu və ya digər dərəcədə münasibəti var. Elə biz buna həyat mövqeyi deyirik.

Ulduz Qasım bütün varlığı ilə qürbətdə yaşasa da, vətənə bağlı insandır. Üstəlik, yazıçı kimi yaradıcı həyatını həmişə vətənin taleyi ilə bağlı görüb. Mən Ulduz Qasımın yaradıcılığını ehtiva edən iki cildlik "Yazıçının vətən dağı" adlı tədqiqat əsəri yazmışam. Bu kitablarda sənətkarın ilk yaradıcılıq dövründən başlayaraq möhtəşəm roman yaradıcılığını da ehtiva edən əsərlərini təhlilə çəkmişəm. Qarabağın işğalı ilə bağlı azərbaycanlı uşağın taleyini "Solmayan nərgiz"də, Xocalı sakinlərinin "Xocalı şikəstəsi"ndə və digər əsərlərində qarabağlıların, ümumiyyətlə, vətənin başına gələn müsibətlərin miqyasını göstərməyə çalışmışam. Daha doğrusu, bu miqyası göstərən əsərləri təhlil etməklə bu günün oxucusu və əsər arasında körpü yaratmaq istəmişəm.

"Yazıçının vətən dağı" kitabının ikinci cildinin üz qabığındakı qeydlərim Ulduz Qasımın yazıçı mövqeyinə kifayət qədər aydın işıq salır: "Vətənlə bağlı məlumatları vətəndən uzaqda yaşayan yazıçı ən müxtəlif yollarla əldə edə bilər. Amma bu gün bu "müxtəlif yollar" ifadəsi "bir əsas yolla" anlamı ilə əvəzlənib. Bu da sosial şəbəkədir. Yazıçının maraqlana biləcəyi hər hansı bir ərazi və hadisə istənilən andaca nəinki məkanı, təsir dairəsi, hadisənin içərisində olanlar – kimliklər belə, hətta video-materiallarla birlikdə yazıçının məlumat bazasına çevrilir. Əlbəttə, bütün bunlar yazıçı üçün tam məlumat mənbəyi ola bilməzdi, əgər yazıçı ruh etibarı ilə axtarışında olduğu yerə, məkana, zamana bağlı olmasaydı". Zənnimcə, səhv etmirəm. Çünki Ulduz Qasım sözün həqiqi mənasında uşaqlığını və ilk gəncliyini keçirdiyi doğma vətənin varlığı ilə nəfəs alır. Bəzən ağır-ağır, bəzən sürətli təkanlarla. Bu nəfəsalmalar bədii yaradıcılıq nümunələrinə çevrilir.

Zənnimcə, yazıçı ən yaxın adamına ünvan olan məktubundan başlayaraq sənətkardır. Çünki yazıçının mənəvi mühiti əslində dünyanın mənəvi mühitinin kiçik modelidir. Bu model içərisində lap bir tərəfdə gündüz, digər tərəfdə gecə olsa da, dünyanın hər tərəfi ehtiva olunur. Okeanları ilə, dağları ilə, vulkanları ilə, səhrası, quraqlığı, yağışları ilə və demək, həm də siyasi kataklizmləri, müharibələri ilə birlikdə.

Mən Ulduz Qasımın yaradıcılığını təhlil etdikcə onun ruhunda bir damcı sudan ötrü yanan çiçəyi də görmüşəm. Lap toxumdan gəbərib öləni də görmüşəm. Sağlam sevgi duyğuları ilə qəlbi çağlayan gənclər də var onun əsərlərində. Sevginin nə olduğundan xəbərsiz "Hekayəti-xırs quldurbasan" obrazını da müşahidə etmişəm. Bütün bunlar o deməkdir ki, həyat acılıqları ilə, ağrıları ilə, eyni zamanda sevincləri, gülüşləri ilə birgə Ulduz Qasımın yaradıcılığında təzahür edə bilir.

Bu təfərrüatları nəyə görə yazıram. Çünki Ulduz Qasımın kiçik həcmli status-esselərində həyatın elə rəngləri sözə gəlir ki, biz bu kiçik mətnlərin arxasında yazıçı ürəyinin timsalı olaraq vətən qəlbinin döyüntülərini hiss edirik.

Məlumdur ki, Azərbaycan xalqı İkinci Qarabağ savaşında "qanını qaşığa" qoydu. Ya torpaqlarını yağılardan təmizləməli idi, ya da ən azı mənən bir xalq kimi ölüb sıradan çıxmalı idi. Birmənalı şəkildə demək doğru olar ki, bütövlükdə vətən bu savaşdan qürurla çıxdı. Ali Baş Komandanın qurucusu olduğu "dəmir yumruq" obrazı yağını elə savaşın ilk günlərindəcə sarsıtdı.

Əlbəttə, savaş qansız olmur. Hələ üstəlik, otuz il işğalda qalmış torpaqları azad etmək istəyən bir xalqın ölümün üzərinə gözünü qırpmadan yeriyən oğullarının inadlı mübarizə meydanı ola.

Buradaca qeyd etmək yaxşı olar ki, Ulduz Qasım vətənin ağrıları ilə birgə nəfəs alan sənətkardır. O, vətənin ağrısını, yarasını öz canında hiss edə bilib. Ona görə də sosial şəbəkə yazılarında şəhidlər mövzusuna xüsusi önəm verib.

Hər hansı bir şəhid haqqında yazarkən onun qəlb yanğısını, ürək göynəmini duymamaq mümkün deyil. Görünür, şəhidlik bütün müqəddəsliyi ilə birgə, həm də ağrı-acı mövzusudur. İndi düşünürük ki, necə yaxşı olardı vətənin yağıdan təmizlənmiş olan yerlərini savaşda canını qurban vermiş oğullar öz gözləri ilə görərdilər.

Amma Ulduz Qasımın yazılarından belə bir məntiq özünü diktə edir ki, şəhidlər Qarabağın bu gününü görürlər. Onlar Qarabağın yenidən qurulması xronikasının iştirakçısıdırlar. Ən azı ona görə ki, onları öz yazılarında əbədiləşdirən Ulduz Qasım kimi yazıçılar var.

Ulduz Qasım təkrar-təkrar qeyd etdiyim kimi, vətənlə nəfəs alan, vətən yolunda qanından keçmiş oğullarla birgə bu gün də nəfəs-nəfəsə üzü gələcəyə baxan bir sənətkar olduğu üçün əsgər oğulların yaraların göynəmini də özündə daşıyır. Və bu göynəmi real təsvirlərlə yazıya gətirə bilir. Qazilər, vətən müharibəsi iştirakçıları haqqında qeydləri göstərir ki, o, sözünün görünən və görünməyən tərəfində igid oğulların möhtəşəm obrazlarını gələcək nəsillərə sözü ilə tanıtmaq gücündədir. Çoxlu qəhrəmanların adlarını çəkmək olar ki, Ulduz Qasım onların təfərrüata varmadan reallığa əsaslanan obrazlarını yaradıb.

Kitabda bir bölmə də Ulduz Qasımın nisbətən geniş və əhatəli qələmə aldığı yazıları əhatə edir.

Ulduz Qasım ilhamlı yazıçıdır. Hər hansı bir mövzunu qələmə alarkən oxucuda obrazın təqdim olunduğu zaman və məkan haqqında dəqiq təsəvvür yarada bilir. Ulduz Qasımın yazılarının arasında "Ağ atın hekayəsi" adlı qeydləri var. Müəllif xatirələr əsasında qələmə alıb: "O gün atların vəfalı, ağıllı olmaları barəsində jurnalda bir yazı oxudum. Nə qədər doğru yazılmışdı. Uşaqlıqdan bunun şahidiyəm. Hələ bunu Çingiz Aytmatovun "Əlvida, Gülsarı" əsərini oxuyandan sonra da çox fikirləşirdim. Rəhmətlik atamın bir ağ atı vardı. Üç kəndin maldarlıq fermasının müdiriydi o zamanlar. Yaylağa köçəndə obalar müxtəlif səmtlərdə yerləşirdilər. Heyvanları yaxşı otlatsınlar deyə bir- birlərindən uzaq məsafələrdə qururdular alaçıqlarını. Fermanın əhalisi də təbii ki, obalara atlarla gedib-gəlirdilər. Bizim alaçığımız o zaman C. Mərcanlı obasındaydı. Həmin il "Əyri qar" yaylağındaydıq". Elə mövzular, elə obrazlar ki, ədəbiyyatda zaman-zaman yenilənir. Görünür, Ulduz Qasım da burada "Əlvida, Gülsarı" əsərinin adını təsadüfi çəkmir. Gülsarı Çingiz Aytmatovun at obrazıdır. Bütün həyatını insanlara sərf edən güclü, qüdrətli Gülsarı qocalanda necə atılır. Yazıçı bunu bir növ insan düçüncəsi kimi, insan həyatının faciəsi kimi vermişdi. Ulduz Qasım da əslində bu mövzunun hansısa bir xalqın taleyində qapanıb qaldığını düşünmür. O da bir növ ağ at obrazı ilə öz Gülsarı obrazının taleyini yaradır. Özünün ağa atı ilə ünsiyyətini təbiətlə necə qovuşdurur, söz onun varlığından dağ çayı kimi çağlayıb gəlir: "Bəzən mən də həmin ağ atla Mehdili obasına qızların yanına gedibgəlirdim. Onlarla bərabər Turşsu üstündə istirahət edirdik. Əgər səhf etmirəmsə, səkkizinci sinifdə oxuyurdum həmin il. Gözlərim dağda-daşda olurdu yola çıxanda. Təbiətin gözəllikləri məni elə valeh edirdi ki, necə gedib-döndüyümü bilmirdim. Lalərinin, adlarını belə bilmədiyim yüzlərcə çiçəklərin qoxusu məni məst edirdi. O gözəllikləri qəlbimdə öz güşəsi var. O tabloları ürəyimə elə işləmişəm ki, ömrümün sonuna qədər onu ordan heç kim, heç nə silə bilməz. Mən bir təbiət aşiqiyəm. Allahın yaratdıqları təkrarsız gözəllikləri, əzəmətli və qürurlu, başı qarlı, bəzən çənli- çiskinli dağları, çayları, gözəl sulu bulaqlarından zövq alıram hər zaman. Səhər-səhər çəmənlərə çıxan bağrı qara xallı lalələr, yazın ilk gəlişiylə açan bənövşələr gözümün önündədi daima...".

Həmin yazının sonluğunacan müxtəlif həyat hadisələrini təsvirdən keçirən yazıçı yenə yekun olaraq ağ atı xatırlayır. Hətta bir dəfə də yuxusuna gəldiyini qeyd edir.

*(Davamı 15-ci səhifədə)*

**Kreddo 2024.-02may,№31-32.-S.15**

*(Əvvəli 14-cü səhifədə)*

# ULDUZUN YENİ KİTABI

## *yaxud, ölməyən duyğular haqqında düşüncələr*

Ulduz Qasım onu əhatə edən ədəbi mühitə son dərəcə diqqətlidir. Onun Tahir Aydınoğlundan bəhs edən "Sözə xəyanət etməyən adam" essesi kifayət qədər maraqlı bir başlanğıcla oxucu diqqətini özünə çəkir: "Yaxşı tanıdığın insan haqda xoş nəsə demək istəyəndə, sənə elə gəlir ki, bu dünyada sözlərdən bol heç nə yoxdu. Cümlələrə boyun əyib yalvarmırsan. Hadisələri gəzmirsən. "Nədən yazım axı..." düşünmürsən. Sözlər sənə yalvarır, "məni yaz" deyə yarışa girirlər. Növbə gözləyirlər. Minnətini götürürlər... İlk dəfə onu birinci kursda tanıdım. Müəllimlərimizin tapşırdığı ixtisas kitablarını yuxarı kursda oxuyanlardan soruşurduq, onlardan məsləhət alırdıq. Müəllimlərin xasiyyətlərini onlardan öyrənirdik". Tahir Aydınoğlunu hamımız tanıyırıq. Kifayət qədər müdrik, yetkin və bu gün Azərbaycan ziyalılığının ağsaqqallarından biri kimi özünün ləyaqət mərtəbəsini şərəflə qoruyur. Amma Ulduz Qasımın qeydləri sanki bizə yeni bir obrazdan dabnışır. Amma heç nəyə etiraz etmirik, sadəcə bu cizgiləri biz niyə görməmişik deyə təəssüflənirik. Bəli, yazıçının ən böyük məharəti odur ki, reallığı görə bilsin. Özü də çoxlarının görə bilmədiyi reallığı.

Doğrusu, Ulduz Qasımın nə vaxtsa mənim haqqımda da nəsə yazacağını heç ağlıma gətirmirdim. Amma bir gün gördüm ki, sosial şəbəkədə ünvanımla bağlı maraqlı bir yazı yer alıb.

Onu da deyim ki, mən sosial şəbəkədə hər kəsə təqdim etdiyim qeydlərimdə çox nöqtələrdən bəlkə qədərindən artıq istifadə edirəm. Hətta bir çox müəlliflər – Məsaim Abdullayev, Meyxoş Abdulla, Yədulla Ağazadə, vaxtı ilə professor Abbas Hacıyev, Asif Rüstəmli, Elçin Mehrəliyev, Vüqar Əhməd və qeyriləri mənim deməmədiyim fikirlərin, istifadə etdiyim nöqtələrin arxasında dayandığını yazılarında göstəriblər. Amma Ulduz Qasım birbaşa mənim istifadə etdiyim çox nöqtələr obrazına müraciət edib, geniş və əhatəli bir yazı yazıb. Və yazının elə girişindəcə mahiyyətə öz zəkası ilə işıq salıb: "Sözdən əziz, sözdən şirin, sözdən bahalı və sözdən acı nə var ki, bu dünyada...Yaxşı deyiblər, qılınc yarası sağalar, söz yarası sağalmaz. Alınan da satılan da sözlə ifadə olunur, sözlə həll olunur. Dünya siyasəti, idarəetmə, yönəltmə, ədəbiyyat, incəsənət, tarix, bütün elmlər sözlərlə yazılır. Sözlərlə, cümlələrlə qalır dünyada. "Söz aşiqləri", "söz sərrafları", "sözün cəfasını çəkənlər," "söz çalarlıqları". Nələr etmir deyilən sözlər, nələri həll etmir ki... Acısının da, şirininin də öz yeri var. "Şirin dil", "acı dil" kəlmələri də elə burdan yaranır. Sözü yaxşı bilən hər hansı yazarın, şairin, publisistin dərdi olmaz. O istənilən məqamda istədiyi fikirləri ifadə edə bilər. Bu da jurnalistikaya, publisistikaya, ədəbiyyata şirinlik, oxunaqlıq, uğur gətirir. Vergülü, nidaları da yerində işlədə bilənlər usta yazarlar, usta söz cəfakeşləridi...Bəs nöqtələri? Bilirsiniz nöqtələr nələr ifadə edir? Deyə bilmədiklərimizin hamısını. Nöqtələr susmaq kimidi. Onu gərək anlayasan, onu gərək duyasan, biləsən...". Bu kiçik mətnin içərisində Ulduz Qasımın polemika gücü, esse emosionallığı, poetik, publisistik məharəti inadla özünü oxucuya diktə edir. Əlbəttə, həmin essenin digər məziyyətləri haqqında söz aça bilərdim. Amma əlahəzrət mətn özü məndən öndədir. Və o hər şeyi olduğu kimi çatdırmaq gücündədir.

"Yanmasan olmaz, yazmasan olmaz", "Böyükxanım", "Dərindən yaralandınız", "Sızlar yada düşəndə...", "Həyəcanların yaşantısı", "Anamızı sevdiyim üçün", "Ürəyimdəki ağrı", "20 Yanvar – azadlıq aşiqlərinə ağı", "İşıqlara inanın", "Vüsalə haqqında", "İki dənizin arasında", "Allah eşqinin ümmanı", "Şövkətin "Köynək" romanı", "Gələnə nə deyək", "Qəlbimdə bir tablo var", "Müəllim ucalığı", "İnanmaq olmur, Çingiz Ənvəroğlu", "Famil Mehdidən bir yarpaq", "Şamil Ənvəroğludan düşüncələr", "Sözlər sizi tapsın", "Bayramınız mübarək", "Nilufər çiçəyi", "Körpələrin dünyası kimi", "Qarabağ çörəyi", "Kitablarımın təqdimində", "Evimizin yanından keçən qatar" və digər esseləri ən müxtəlif ovqatlarda həyat gerçəkliklərini göstərən düşüncələrdir.

"Nöqtələrin dedikləri" kitabı təkcə Ulduz Qasımın yaradıcılığı üçün yox, həm də ədəbi publisistikamız üçün yeni orijinal nümunələrdən biridir.

"Nöqtələrin dedikləri"... nöqtələr çoxumuzun karına gəlir. Kim bu barədə necə düşünür – deyə bilmərəm, amma Ulduz Qasımın düşündüklərini bu kitabı oxuyanlar daha dəqiq biləcəklər.

***Əli Rza XƏLƏFLİ,***
***05.02.2024***